# Vətən, torpaq sevgisi...

***44 günlük haqq savaşımızda sinəsini Vətənə sipər edib şəhidlik zirvəsinə ucalan qeyrətli oğullardan biri də Arif Qeybiyevdir. Adı şərəf tariximizə yazılan bu, Vətən oğlu 1997-ci ildə Astaranın Səncərədi kəndində dünyaya göz açıb. Orta məktəbdə oxuduğu zaman idmana marağı onu 2012-ci ildə Astara Pedaqoji Kollecinin "İdman" fakültəsinə gətirib. Burada oxuduğu zaman müsbət insan keyfiyyətləri, yaxşı oxuması, idman uğurları ona böyük hörmət qazandırır.***

Arif idmanın kross qaçışında qüvvəsini çox sınayıb, həmişə də qatıldığı yarışlardan qalib ayrılıb. O, üçqat Azərbaycan çempionu, Atletika üzrə gənclər arasında Azərbaycan çempionu, yeniyetmələr arasında respublika çempionu, eləcə Olimpiya təsnifat yarışların iştirakçısı olub.

Ürəyi Vətən, torpaq eşqli Arif 2016-cı ildə ordu sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Bir müddət Daxil İşlər Nazirliyinin Daxili Qoşunlarında, daha sonra Naxçıvan Muxtar Respublikasında xüsusi təyinatlıların bölüyündə Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirib, erməni dığalardan qisas alacağı günə hazırlaşıb. Bu məqsədlə əsgərliyi başa çatsa da, həyatını hərbiyə bağlayıb. 2018-ci ilin oktyabr ayında hərbi kursa çağırılıb. Təmiz ürəkli, vicdanlı, qeyrətli, həyatının mənasını Vətənə, xalqa təmənnasız xidmətdə görən Arif tankçı kimi orduda fəaliyyət göstərib. İkinci Qarabağ müharibəsinin ilk günündə yağı düşmənin üstünə birincilər sırasında gedib və meydanda onlara qan uddurub. Torpaq uğrunda can qoyan, mərdliklə döyüşən igid Füzulidə düşmən gülləsinə tuş gəlib. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin azadlığına görə medallara layiq görülüb.

Ölümsüzlüyə qovuşan qəhrəman qəlblərdə yaşamaqla gəlib 27 yaşına çatdı. Astara Pedaqoji Kollecinin rəhbərliyi və bir qrup əməkdaşı kollecin məzunu şəhid Arif İsmayıl oğlunun doğum günü münasibətilə məzarını ziyarət etdilər, önünə güllər qoydular. Kollecin direktoru, professor, şəhid atası Kamran Kazımov çıxışı zamanı dedi: "Vətənpərvərlik - Vətəninə, dövlətinə, xalqına, millətinə olan sonsuz sevgidən yaranan bir duyğudur, məfkurədir. Doğulub boya-başa çatdığı yurduna bağlı olan, onun uğurları üçün çalışan hər kəs vətənpərvərdir. Onu sevmək, sevdirmək və qorumaq hər birimizin müqəddəs borcudur. Arif kimi oğullar Vətən yolunda canlarını qurban verdilər. Şəhidlər ölməzlər, onlar daim ürəklərdə, yaddaşlarda yaşayacaqlar. 30 ildən sonra 44 günə Böyük Zəfəri xalqımıza



bəxş edən şəhidlərimizi ən səmimi, ən ülvi duyğularla yad edirik".

Şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı Nuranə Fərəcova isə bildirdi ki, şəhid ailəsi olmaq nə qədər ağrılı, acılı olsa da, o qədər qürurvericidir.

Son zamanlar kollecdə rəhbərlik tərəfindən şəhid ailələrinə diqqət və qayğının artırılması təqdirəlayiqdir.

Ziyarətçilər daha sonra kollecin digər məzunu şəhid Mirzəhəsən Əlizadənin uyuduğu müqəddəs yerə baş çəkdilər və ehtiram əlaməti olaraq məzarına güllərdən çələng hördülər.

***Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Unikal 2024.- 14 iyun, №20.- S.13